

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 190 (21.342)

*1 oktyabr 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 30-da Dünya Skaut Komitəsinin sədri Joao Armando Qonsalvesi və təşkilatın baş katibi Skot Teareni qəbul edib.

Görüşdə Dünya Skaut Komitəsinin növbəti konfransının və 13-cü Dünya Skaut Gənclər Forumunun səs çoxluğu ilə Avrasiya regionunda ilk dəfə olaraq 2017-ci ildə Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilən qərardan məmnunluq ifadə olunub, bu tədbirlərin ölkəmizdə yüksək səviyyədə təşkil olunacağı əminliklə qeyd edilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 30 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında və bu cinayətlərin açılmasında, korrupsiyaya qarşı mübarizə aparılmasında, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında xidmətlərinə görə Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşı təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları da vardır.

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə:**

Rəhimov Daşqın Hidayət oğlu

Səfərov Faiq Rəsul oğlu

## Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılsın və onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülsünlər:

Quliyeva Səkinə Elxan qızı – Naxçıvan Musiqi Kollecinin tələbəsi, fortepiano üzrə

Ramazanlı Uğur Hüseyn oğlu – Culfa Şəhər Uşaq Musiqi Məktəbinin şagirdi, fortepiano üzrə

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 30 sentyabr 2015-ci il*

## Culfa rayonunun Gal kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

“Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq kəndlərin inkişafı, bu yaşayış məntəqələrində infrastrukturun və sosial xidmətlərin səviyyəsinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.

Bu gün muxtar respublikanın ən ucqar kəndlərində belə müasir şərait yaradılır. Belə kəndlərdən biri də Culfa rayonundakı gözəl təbiətə malik ucqar dağ kəndlərindən olan Galdır. Uca zirvələrin əhatəsində, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən bu kənddə geniş quruculuq işləri aparılmış, məktəb binası, kənd və xidmət mərkəzləri inşa olunmuşdur.

## Gal kənd tam orta məktəbi yeni binada fəaliyyət göstərəcək



Sentyabrın 30-da Gal kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri Culfa rayonunun kəndlərini də əhatə edib. Hazırda rayonun Saltaq və Qızılca kəndlərində məktəb binası, kənd və xidmət mərkəzləri tikilir. Yeni məktəb binalarının tikilməsi rayonda təhsilin inkişafına səbəb olmuş, ali məktəblərə qəbulda yüksək nəticələr qazanılmışdır. 2014-2015-ci tədris ilində rayon məktəblərini bitirən məzunlardan 172-si ali məktəblərə, 33-ü isə orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Bu gün Gal kənd tam orta məktəbinin istifadəyə verilməsi də təhsil quruculuğu sahəsində görülən tədbirlərin davamıdır. Şükür Babayev yaradılan şəraitə görə rayon əhalisi adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gal kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***“Müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır”***, – fikrini diqqətə çatdıraraq demişdir: Ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Gələcəyin təminatçıları olan gənc nəsil isə məktəblərdə yetişir. Ona görə də hər bir təhsil ocağında, ailədə gənclərin hərtərəfli hazırlanması diqqət mərkəzində saxlanılmalı, bu məqsədlə ardıcıl tədbirlər görülməlidir.

Ali Məclisin Sədri demişdir: Ulu öndərimizin tövsiyələrinə uyğun olaraq bu gün ölkəmizdə təhsilin inkişafına qayğı göstərilir. Hər il yeni təhsil müəssisələri tikilərək gənclərin istifadəsinə verilir. Bütün bunlar sağlam gənc nəslin yetişdirilməsində vacib şərtdir. Çünki ölkə o zaman inkişaf edir ki, onun təhsilli, vətənpərvər və peşə sahibi olan gəncliyi olsun. Bu gün ölkəmizdə gənclərin hərtərəfli yetişdirilməsi, ailə, cəmiyyət və dövlət üçün yararlı vətəndaş olmaları üçün təhsilin bütün pillələri üzrə hərtərəfli şərait yaradılmışdır. İstər ümumtəhsil məktəblərində, istərsə də peşə, orta ixtisas və ali təhsil müəssisələrində müasir tədris şəraiti vardır.



Ali Məclisin Sədri demişdir: Təhsil sahəsində yaradılan şərait müəllim və şagirdlərin üzərinə mühüm vəzifələr qoyur. Şagirdlər yaxşı təhsil almalı, gələcəkdə xalqımız və dövlətimiz üçün yararlı vətəndaş olmalıdırlar. Müəllimlər isə gənclərə yaxşı təhsil verməklə yanaşı, həm də onları vətənpərvər böyütməlidirlər. Məktəbdə dərs prosesi müasir tədrisin tələbləri səviyyəsində qurulmalı, müəllim-şagird münasibətlərində fərdi yanaşmaya üstünlük verilməli, hər bir gəncin marağına və bacarığına uyğun peşə seçiminə köməklik göstərilməlidir. Gal kənd tam orta məktəbində bu işlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır. Qarşıda duran əsas vəzifə bu şəraitdən düzgün istifadə etməkdən ibarətdir. Çünki bu gün muxtar respublikanın istər şəhər və rayon mərkəzlərində, istərsə də Gal kəndi kimi ucqar yaşayış məntəqələrində tikilən məktəblər bir-birindən fərqlənmir. Bütün məktəb binalarında eyni tədris şəraiti yaradılır, müasir avadanlıqlar quraşdırılır.

Ali Məclisin Sədri kollektivin yaradılan şəraitdən səmərəli istifadə edəcəyinə əminliyini bildirmiş, məktəb binasının açılışını bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 3 mərtəbəli və 96 şagird yerlik məktəb binasında tədris, idarəetmə, sinifdənxaric məşğələlər, idman və şagirdlərin asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait vardır. Binada 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana və idman zalı istifadəyə verilmiş, həyətdə açıq idman qurğuları quraşdırılmışdır. Kitabxana fondunda 1266 ədəd dərslik və bədii ədəbiyyat vardır.

Kompüter sinfində şagirdlərin informasiya-kommunikasiya texnologiyaları ilə bağlı biliklərə yiyələnmələri üçün lazımi imkanlar yaradılmış, kompüterlər internetə qoşulmuş və elektron dərsliklərlə təmin edilmişdir.

Elektron lövhəli sinifdə Gal kənd tam orta məktəbi də daxil olmaqla muxtar respublikanın 203 ümumtəhsil məktəbi ilə Naxçıvan Dövlət Tarix Muzeyi arasında distant dərs keçirilmişdir.

Məktəbdə tədris zamanı nəzəri biliklərlə yanaşı, təcrübi məşğələlərə də üstünlük verilir. Kimya-biologiya və fizika laboratoriyaları əyani tədris vasitələri və elektron təcrübə avadanlıqları ilə təchiz edilmişdir. Fizika laboratoriyasında quraşdırılan elektron lövhə vasitəsilə keçilən mövzulara dair elektron dərsliklərdən və internet resurslarından istifadə etmək mümkündür.

*Ardı 2-ci səhifədə*





Təhsil ocağında məktəblilərin fiziki hazırlığı da diqqət mərkəzində saxlanılacaqdır. İdman zalında mini-futbol, basketbol və digər idman növləri ilə məşğul olmaq üçün şərait vardır.

Muxtar respublikanın ümumtəhsil məktəblərində çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisi üçün bütün imkanlar yaradılır, hərbi kabinələr istifadəyə verilir. Gal kənd tam orta məktəbinin hərbi kabinəsində də plakatlar, stendlər və digər əyani vəsaitlər qoyulmuşdur.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir: İnsan o zaman cəmiyyət üçün yararlı olur ki, o, başqalarına fayda versin. Gənclərin hərtərəfli yetişdirilməsi, ölkəmiz üçün yararlı vətəndaşlar kimi böyüdülməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu gün Gal kənd tam orta məktəbində yaradılan şərait müasir tədrisin tələbləri səviyyəsindədir. Bu şəraitdən səmərəli istifadə olunmalı, şagirdlər yaxşı təhsil almalı, gələcəkdə peşə sahibi olmalıdırlar.

Gənc müəllim Vüsal Abbasov yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: Bu gün ölkəmizdə təhsilin inkişafı sahəsində görülən işlər, istifadəyə verilən yeni məktəblər şagirdlərlə yanaşı, biz gənc müəllimləri də sevindirir. Mən bu il Naxçıvan şəhərində keçirilən təhsil yarmarkasında iştirak edərək Gal kənd tam orta məktəbinə təyinat almışam. Hazırda məktəbdə coğrafiya fənnini tədris edirəm. Məktəb binasının müasir maddi-texniki bazası dərslərin mütərəqqi metodlar əsasında keçirilməsinə imkan verir. Müasir məktəbdə işlə təmin olunmaq, çalışmaq gənc müəllim kimi həm mənim, həm də pedaqoji kollektivin məsuliyyətini daha da artırır. Vüsal Abbasov göstərilən qayğı və etimadın müqabilində daha səylə çalışacaqlarına, vətənpərvər və bilikli gənclər yetişdirəcəklərinə söz vermişdir.

Məktəbin həyətində də geniş abadlıq işləri görülmüşdür.

## Galda kənd mərkəzi istifadəyə verilmişdir





Muxtar respublikanın müasir kənd modelinin əsas səciyyəvi xüsusiyyətlərindən biri olan kənd mərkəzləri vasitəsilə yaşayış məntəqələrində vahid idarəetmə sistemi formalaşdırılır.

Sentyabrın 30-da Galda yeni kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını bildirən lenti kəsmiş və binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan kənd mərkəzində bələdiyyə və inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün müasir iş otaqları ayrılmış, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, klub və iclas zalı istifadəyə verilmişdir.

Mərkəzin kitabxanası zəngin fondu ilə diqqəti cəlb edir. Burada 6 mindən çox kitab vardır. Kitabxanada bədii ədəbiyyatla yanaşı, kənd həyatını əks etdirən, təsərrüfat sahələrinin inkişafı ilə bağlı onlarla elmi-publisistik materiallar da əldə etmək mümkündür.

Baytarlıq məntəqəsinə baxış zamanı qeyd olunmuşdur ki, kəndin geniş əkinəyararlı torpaqları və otlaq sahələri vardır. Torpaqlardan səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılır, fərdi təsərrüfatlar genişləndirilir. Bütün bunlar baytarlıq xidmətinin günün tələbləri səviyyəsində təşkilini zəruri edir. Ona görə də mərkəzdə xidmətin nümunəvi təşkili üçün hərtərəfli şərait yaradılmış, baytarlıq məntəqəsi lazımi dərman vasitələri ilə təmin edilmişdir.

Yeni Azərbaycan Partiyası Gal kənd ərazi ilk təşkilatının sədri Təhminə Şəkərəlisoy minnətdarlıq edərək demişdir ki, ərazi ilk təşkilatının üzvləri kəndin ictimai-mədəni həyatında fəal iştirak edirlər. Kənd ictimaiyyətinin nümayəndələri, gənclər ulu öndər Heydər Əliyevin siyasi xəttinə daim sədaqət göstərir, partiya üzvlərinin sayı ilbəil artır. Kənd mərkəzində yeni iclas zalının və ərazi ilk təşkilatı üçün iş otağının istifadəyə verilməsi daha səmərəli fəaliyyət göstərməyə imkan verəcəkdir. Bundan sonra da səylə çalışacaq, aparılan abadlıq-quruculuq işlərində yaxından iştirak edəcəyik.

Rabitə evində 384 yerlik yeni ATS quraşdırılmış, poçt bölməsi fəaliyyətə başlamışdır.

Əhalinin sağlamlığının qorunması muxtar respublikada həyata keçirilən sosial tədbirlərin əsasını təşkil edir. Hər il yaşayış məntəqələrində müasir tibb ocaqları tikilərək istifadəyə verilir, səhiyyə xidmətinin səviyyəsi yaxşılaşdırılır. Gal kəndində müasir avadanlıqlarla təchiz edilən feldşer-mama məntəqəsinin istifadəyə verilməsi də bunu bir daha təsdiq edir. Məntəqə müdir, mama və manipulyasiya otaqlarından ibarətdir.

Ali Məclisin Sədri kənddə səhiyyə xidmətinin təşkili ilə maraqlanmış, müvafiq tapşırıqlar vermişdir.

Binanın həyəti də abadlaşdırılmış, yaşıllıqlar salınmışdır.

## Kənddə yeni xidmət mərkəzi fəaliyyətə başlamışdır





Ucqar dağ kəndlərində yaşayan sakinlərin zəruri məişət tələbatlarının yerində ödənilməsi vacib məsələdir. Muxtar respublikanın yaşayış məntəqələrində istifadəyə verilən xidmət mərkəzləri bu mənada mühüm əhəmiyyət kəsb edir.

Həmin gün Galda yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını etmişdir.

Məlumat verilmişdir ki, əvvəllər kənd sakinləri gündəlik ərzaq və təsərrüfat mallarına olan tələbatlarını ödəmək üçün rayon mərkəzinə və digər kəndlərə üz tuturdular. Bu da vaxt itkisinə və əlavə xərcə səbəb olurdu. Lakin yeni xidmət mərkəzinin istifadəyə verilməsi ilə bu problem öz həllini tapmışdır. Mərkəzdə ərzaq-sənaye malları mağazası və bərbərxana fəaliyyətə başlamış, 2 nəfər işlə təmin olunmuşdur.

Sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Kənd ağsaqqalı Qadir Həsənov sakinlər adından minnətdarlıq edərək demişdir: Gal kəndində heç vaxt müasir məktəb binası, kənd və xidmət mərkəzləri olmamışdı.

*Ardı 3-cü səhifədə*



Lakin bu il aparılan quruculuq işləri kəndin simasını dəyişmiş, əhalinin rahatlığına xidmət edən müasir infrastruktur yaradılmış, yeni iş yerləri açılmışdır. Yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin tikilməsi sakinlərin böyük sevincinə səbəb olmuşdur. Artıq dağların əhatəsində yerləşən bu kənddə yaşamaq, təsərrüfatla məşğul olmaq xeyli asanlaşmışdır. İnsanlar dövlətin yaratdığı imkanlardan istifadə edərək təsərrüfatlarını genişləndirir, gün-güzəranlarını yaxşılaşdırırlar. Bu şərait, göstərilən qayğı ulu öndər Heydər Əliyevin siyasi xəttinin bəhrəsidir. Ölkəmizdəki sabitliyin, dinamik inkişafın daha bir ifadəsidir. Sakinlər bütün bunların qədrini bilərək bundan sonra da səylə çalışacaq, ölkəmizin, eləcə də muxtar respublikanın inkişafında yaxından iştirak edəcəklər.

Ali Məclisin Sədri demişdir ki, Gal muxtar respublikanın səfalı təbiəti və geniş təsərrüfat imkanlarına malik olan kəndlərindən biridir. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən Azərbaycanda torpaq islahatına ilk dəfə Gal və Şurud kəndlərində başlanılmış, təsərrüfatlar özəlləşdirilmişdir. Gal kəndinin ərazisi heyvandarlığın, o cümlədən arıçılığın inkişaf etdirilməsi üçün çox əlverişlidir. Kənddəki bütün mənzillər daimi elektrik enerjisi, qaz və içməli su ilə təmin olunur. Əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir. Həyata keçirilən bu tədbirlər sakinlərin rahat yaşamasına xidmət edir. Bunun müqabilində isə sakinlər yaradılanları qorumalı, onlardan səmərəli istifadə etməli, təsərrüfatları genişləndirməli, kənddə bol məhsul istehsal olunmalıdır.

* * *

Gal kəndinin yolları da abadlaşdırılmış, 14 kilometr məsafəyə çınqıl örtük verilmiş, 1 selötürücü və 56 su keçidi tikilmiş, kənd daxilində 300 metrlik beton kanal çəkilmişdir. Kəndin elektrik, rabitə, su və təbii qaz təchizatı da yaxşılaşdırılmış, 2100 metr elektrik, 1310 metr rabitə, 650 metr fiber-optik kabel xətti çəkilmiş, yeni tikililər qazlaşdırılmışdır. Kənddəki mövcud artezian quyusunda və “Anabat” kəhrizində də təmir-bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



*1 oktyabr prokurorluq işçilərinin peşə bayramıdır*

## Muxtar respublikanın prokurorluq orqanları hərtərəfli qayğı ilə əhatə olunmuşdur

***Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən, hər il oktyabrın 1-i “Prokurorluq işçilərinin peşə bayramı günü” kimi qeyd olunur.***

Ölkəmizdə prokurorluq orqanlarının əsası 1918-ci il oktyabrın 1-də qoyulsa da, onun müstəqil dövlət orqanı kimi fəaliyyəti və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyə nail olunmuş, qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi milli dəyərlər və beynəlxalq prinsiplər əsasında təmin edilmişdir. Bu tədbirlərin tərkib hissəsi olaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. Prokurorluq orqanlarının qanunçuluğun təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində nüfuzlu təsisata çevrilməsi, fəaliyyətini dövrün tələbləri səviyyəsində qurması məhz ümummilli liderin rəhbərliyi altında həyata keçirilmiş mütərəqqi islahatlar nəticəsində mümkün olmuşdur. ***“Prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir”***, – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması üçün hüquqi zəmin formalaşdırmış, prokurorluğun fəaliyyət istiqamətlərini müəyyən etmişdir. Sonralar “Prokurorluq orqanlarında qulluqkeçmə haqqında” Azərbaycan Respublikası Qanununun, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsi nəticəsində hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Hazırda ölkəmizdə prokurorluq orqanları ilə ictimaiyyətin əlaqələri qarşılıqlı etimad prinsipi əsasında qurulmuş, vətəndaşların müraciətlərinin vaxtında araşdırılması və zəruri tədbirlərin görülməsi, bütövlükdə isə ölkə Konstitusiyasında təsbit olunmuş vətəndaşların müraciət etmək hüququ yüksək səviyyədə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyəti də Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar respublika prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müstəqil dövlətin əsas sütunu onun hüquq-mühafizə orqanlarıdır. Hər bir ölkənin ümumi sabitliyi, sosial-iqtisadi inkişafı, ilk növbədə, həmin ölkənin hüquq-mühafizə orqanlarının fəaliyyətindən asılıdır. Ona görə də bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir”.***

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları yüksək dövlət qayğısını daim öz üzərində hiss etmişdir. Ötən dövrdə muxtar respublika prokurorluğu, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa Rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək Rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan Şəhər və Babək Rayon prokurorluqları üçün yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Cinayət hadisələrinin qarşısının vaxtında alınmasında profilaktik tədbirlərin həyata keçirilməsi mühüm amildir. Muxtar respublikanın prokurorluq orqanları işçiləri hüquqi maarifləndirmə və profilaktik tədbirlərin keçirilməsini diqqət mərkəzində saxlayırlar. Bunun nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır.

Prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə, müsabiqə yolu ilə keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına təkmilləşdirilməsinə səbəb olmuşdur. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna muxtar respublika ərazisində yaşayış yeri üzrə qeydiyyata alınmış şəxsləri prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar.

*Öz üzərlərində yüksək dövlət qayğısını daim hiss edən prokurorluq orqanları əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

## Fransalı səfir Naxçıvanın mədəniyyət və istehsal müəssisələrində olub



***Fransa Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Paskal Mönyenin Naxçıvan Muxtar Respublikasına səfərinin ikinci günü maraqlı tanışlıqlarla yadda qaldı.***

Dünən fransalı səfirin ilk baş çəkdiyi ünvan Naxçıvan Biznes Mərkəzi oldu. Burada səfirə məlumat verildi ki, Biznes Mərkəzi muxtar respublikanın biznes mühitinin və imkanlarının nümayişi, təbliği baxımından mühüm rola malikdir. Burada qurulan pavilyonlarda müxtəlif növ ərzaq və sənaye məhsulları, əl işləri haqqında məlumat alan fransalı səfir daha çox yüngül və ağır sənaye, kənd təsərrüfatı, qida, tekstil, dağ-mədən, metallurgiya, avtomobil sənayesi, rabitə, balıqçılıq və digər sahələrin məhsulları ilə maraqlandı.

Qeyd edildi ki, bu məhsullar yüksək keyfiyyəti ilə seçilir. Bu, ilk növbədə, məhsulların hazırlandığı müəssisələrin ən müasir avadanlıqlarla təchiz edilməsi ilə bağlıdır. Təsadüfi deyildir ki, indi muxtar respublikada bir çox sahələrdə istehsal olunan məhsullara dünya bazarında böyük tələbat vardır. Naxçıvanda istehsal sahələrinin çoxşaxəli olması blokada şəraitində yaşayan muxtar respublikanı qida, sənaye və digər məhsullarla tam təmin edir, idxaldan asılılığı minimuma endirir.

Daha sonra fransalı səfir Naxçıvan Avtomobil Zavodunda oldu. Bildirildi ki, Naxçıvan Avtomobil Zavodu 2010-cu il yanvarın 11-də istifadəyə verilib. Zavodda Almaniya, İtaliya və Belçikadan gətirilmiş müasir texnoloji avadanlıqlar quraşdırılıb. Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə müxtəlif modellərdə "NAZ-Lifan" markalı minik avtomobilləri istehsal edilir. İllik istehsal gücü 4-5 min ədəd minik avtomobili olan Naxçıvan Avtomobil Zavodu Azərbaycanda yeganə müəssisədir ki, avtomobillərin bütün hissələri burada yığılır. Bu da zavodda istənilən modeldə minik və yük avtomobillərinin istehsalına imkan verir. Zavodda həm mexaniki, həm də avtomatik ötürücü sürət qutusu ilə işləyən avtomobillər istehsal edilir.

İstehsal olunan avtomobillər nəzarət şöbəsindən keçdikdən sonra satış sahəsinə buraxılır. Zavod fəaliyyətə başlayan zaman ilkin mərhələdə istehsal xəttinin icraçıları və nəzarətçiləri xarici mütəxəssislər idisə, hazırda istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilir. Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı da yüksək səviyyədə qurulub, Naxçıvan və Bakı şəhərlərində satış mərkəzi, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satışı mağazası yaradılıb. Mühərrik və sürət qutusuna 40 min kilometr və ya 2 il zəmanət verilməklə avtomobillərin satışı nəğd və sərfəli kredit şərtləri ilə aparılır. Zavodda istehsal olunan avtomobillər ölkəmizin digər regionlarında da istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda muxtar respublikamızda, Bakı, Sumqayıt və Neftçala şəhərlərində "NAZ-Lifan" markalı minik avtomobilləri ilə taksi xidməti göstərilir.

"Gəmiqaya Mineral Sular"MMC, "Gəmiqaya Mebel Fabriki" MMC, "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-də də fransalı səfirə bu müəssisələrin istehsal gücü, istehsal olunan məhsulların çeşidi və ixrac imkanları haqda ətraflı məlumat verildi.

Günün ikinci yarısında isə Paskal Mönye Əshabi-Kəhf ziyarətgahında oldu. Səfirə məlumat verildi ki, Azərbaycanda inanclı insanların pənah apardığı məşhur ziyarətgahlar çoxdur. Onlardan biri də Naxçıvanda yerləşən Əshabi-Kəhf mağarasıdır. Əshabi-Kəhf təkcə ziyarətgah deyil, həm də Azərbaycanın ən qədim tarixi abidələrindən biridir. Təsadüfi deyil ki, İslamın müqəddəs kitabı "Qurani-Kərim"də Əshabi-Kəhfin adı çəkilir.

Əshabi-Kəhf ziyarətgahı ilə tanışlıqdan sonra səfir Ordubad şəhərini gəzib, rayon Tarix-Diyarşünaslıq Muzeyindəki eksponatlarla tanış olub.

Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Paskal Mönyenin Naxçıvan Muxtar Respublikasına səfəri dünən başa çatıb.

✍ **Səbuhi HÜSEYNOV**

## Müharibə veteranının 90 yaşı qeyd edilib

***Sentyabrın 30-da Ordubad rayon Aşağı Əndəmic kənd sakini, müharibə veteranı Fazil Əsədovun 90 yaşının tamam olması münasibətilə onunla görüş keçirilib.***

Tədbirdə iştirak edən Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova yubilyarı 90 yaşı münasibətilə təbrik ediblər.

Bildirilib ki, 1941-1945-ci illər müharibəsi veteranlarının sosial müdafiəsinin gücləndirilməsi daim dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Onlar minik avtomobilləri, həmçinin texniki-bərpa vasitələri ilə təmin olunur, sanatoriya və pansionata göndərilirlər. Bundan əlavə, müharibə veteranlarına pensiya və müavinətlərlə yanaşı, hər ay Prezident təqaüdü ödənilir ki, bu da onların sosial rifahının yüksəlməsinə xidmət edir.

Fazil Əsədov ona göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda yubilyara hədiyyə təqdim olunub.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 12 mart 2015-ci il tarixli Sərəncamı ilə təsdiq edilən "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq keçirilib.

## Muxtar respublikanın ən uzunömürlü sakini ilə görüş keçirilib

Dövlətimiz tərəfindən ahıllara xüsusi diqqət və qayğı göstərilir, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində davamlı tədbirlər keçirilir. Onların yubiley yaşlarının, uzunömürlü ailələrin gümüş, qızıl və brilyant toylarının qeyd olunması göstərilən qayğının bariz nümunəsidir.

1 oktyabr Beynəlxalq Ahıllar Günü münasibətilə sentyabrın 30-da muxtar respublikanın ən uzunömürlü insanı, 117 yaşlı Şərur rayon sakini Qönçə Hümbətova ilə görüş keçirilib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şərur Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Qönçə xanımla söhbət zamanı bildirilib ki, çinar ömürlü insanlar, eləcə də Qönçə xanım bu günə qədər dövlətimizin diqqət və qayğısı ilə əhatə olunub və bundan sonra da belə tədbirlər davam etdiriləcək.

Uzunömürlü Qönçə Hümbətova ona göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonra muxtar respublikanın ən yaşlı sakininə hədiyyələr təqdim olunub.

Xatırladaq ki, Qönçə Hümbətova 1 iyul 1898-ci ildə Vedi rayonunun Qədirli kəndində anadan olub. 1905-ci ildə ermənilərin bu kəndi yandırmasından sonra anası ilə Naxçıvana gələrək burada məskunlaşıblar.

**Xəbərlər şöbəsi**

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul edilmiş qətnaməyə uyğun olaraq, hər il oktyabrın 1-i dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu günün təsis olunmasında məqsəd ahılların sosial problemlərini öyrənmək və ictimaiyyətin diqqətini onların həllinə yönəltməkdən ibarətdir.***

*1 oktyabr Beynəlxalq Ahıllar Günüdür*

## Muxtar respublikada ahıl vətəndaşlar xüsusi qayğı ilə əhatə olunmuşlar

Həyat təcrübəsi ilə gələcək nəsillərə nümunə olan ahıllara hörmət və qayğı həm də nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək kimi mühüm amala xidmət edir. Tarix boyu Azərbaycan xalqı yaşlı nəslin nümayəndələrinə ehtiram göstərməyi yüksək insani keyfiyyət kimi dəyərləndirmişdir. Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanları, onların problemlərini hər zaman diqqət mərkəzində saxlamış, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirmiş, ahılların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Ulu öndərin 2001-ci il iyunun 22-də imzaladığı "Ahıllara sosial xidmət haqqında" Qanun bu mənada mühüm əhəmiyyət daşıyır. Qanuna əsasən 70 yaşına çatan hər bir Azərbaycan vətəndaşı ahıl hesab olunur.

Ölkəmizdə bu gün də ahıl vətəndaşların problemlərinə həssas münasibət göstərilir. Onların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzindədir. Son illər bu məqsədlə davamlı islahatlar həyata keçirilmiş, pensiya və müavinətlərin məbləği dəfələrlə artırılmışdır. 2011-ci il dekabrın 30-da təsdiq edilən "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi qayğıya ehtiyacı olan şəxslərin, o cümlədən ahılların sosial problemlərinin həlli sahəsində yeni imkanlar açmışdır.

Muxtar respublikada da ahıl vətəndaşlara göstərilən sosial xidmətlərin həcmi ilbəil artır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən islahatların davamlılığını təmin etmişdir. Hazırda muxtar respublikada yaşlı nəslin nümayəndələri sırasında müharibə veteranları xüsusi ehtiramla yad edilir, gənc nəslin vətənpərvərlik tərbiyəsində onların həyat yolu örnək götürülür. Böyük Vətən müharibəsinin ağır və çətin sınaqlarından keçən veteranlar dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı ilə əhatə olunmuşlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş "1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıq və yubileyin qeyd olunması üzrə Tədbirlər Planı"na uyğun olaraq, müharibə veteranlarının yubileyləri qeyd olunur. Bu günə qədər Böyük Vətən müharibəsinin iştirakçısı olan 122 ahıl minik maşını ilə təmin edilmişdir.

Tənha yaşayan və hərəkət qabiliyyəti məhdud olan ahıllar da dövlətimiz tərəfindən xüsusi himayəyə götürülmüşdür. Muxtar respublikada bu qəbildən olan 478 ahıl vətəndaşa Əhalinin Sosial Müdafiəsi mərkəzləri tərəfindən evlərində, 14 ahıla isə Ahıllar evində sosial xidmət göstərilir. Bu sahədə işlərin səmərəliliyini artırmaq məqsədilə tənha ahılların hər biri haqqında məlumat bazası yaradılmışdır. Onlara mütəmadi olaraq evlərində baş çəkilir, həkim müayinəsindən keçirilir və sosial problemləri həll olunur. Ahıllar evində sakinlərin rahat yaşaması üçün hər cür şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Tibbi-Sosial Ekspert Komissiyasının həkimləri mütəmadi olaraq Ahıllar evinə gələrək sakinləri müayinədən keçirir və ehtiyacı olanların müalicəsi üçün lazımi tədbirlər görürlər. Hər cür diqqət və qayğı ilə əhatə olunan Ahıllar evinin sakinləri özlərini tənha hiss etmirlər. Əlamətdar günlərdə onlarla görüşlər təşkil olunur, sovqatlar təqdim edilir.

Muxtar respublikada ahıl insanların sağlamlıqlarının qorunmasına, tibbi reabilitasiyasına da xüsusi diqqət yetirilir. Cari ilin 9 ayı ərzində 27 ahıl Naxçıvan Əlillərin Bərpa Mərkəzində müalicə olunmuş, 10 ahıl müalicə üçün respublikamızın sanatoriya və pansionatlarına göndərilmiş, 33 nəfərə səyyar protez-ortopediya xidməti göstərilmişdir.

Yaşlı nəslin məşğulluğunun təmin olunması, asudə vaxtlarının səmərəli təşkili onların özlərini cəmiyyətin üzvü kimi hiss etməsi baxımından mühüm əhəmiyyətə malikdir. Muxtar respublikada ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər, stolüstü oyunlar üzrə yarışlar təşkil olunur, bayramlar və əlamətdar günlər birlikdə qeyd edilir. Həmçinin 100 yaşı tamam olan muxtar respublika sakinlərinin yubileyləri, habelə ahıl ailələrin evliliklərinin ildönümləri keçirilir, sosial xidmət göstərilən tənha ahılların muxtar respublikamızın görməli yerlərinə gəzintiləri təşkil olunur.

Hər il Beynəlxalq Ahıllar Günü münasibətilə muxtar respublikada ahılların iştirakı ilə tədbirlər keçirilir. Bu il sosial xidmət göstərilən ahılların "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarəti təşkil edilmiş, ahıllar arasında bayatı müsabiqəsi, muxtar respublikanın ən uzunömürlü sakini ilə görüş keçirilmişdir. Bu gün Ahıllar evində, Naxçıvan şəhərində və rayonlarda sosial xidmət göstərilən tənha ahıllarla görüşlər təşkil ediləcək, ümumilikdə, 492 şəxsə bayram sovqatı təqdim olunacaqdır.

Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı həm də ahılların sosial müdafiəsinin gücləndirilməsinə, onların sosial rifahının daha da yaxşılaşmasına şərait yaratmışdır. Ona görə də ahıllara göstərilən qayğının səviyyəsi ilbəil daha da artır. Bütün bunlar isə muxtar respublikada insan amilinə verilən qiymətin daha bir ifadəsidir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 735